Niyə illərlə ingilis dili dərsi keçir, amma yaxşı danışa bilmirik?

Xarici dil öyrənməyə qərar verərkən bu dili ən yaxşı və ən qısa müddətdə öyrənmə üsulları ilə maraqlanır, onlayn platformalarda məlumatlar tapmağa çalışırıq. İki ay bundan öncə “YouTube”da axtarış apararkən ingilis dilinin tədrisi ilə bağlı aydın şəkildə izahlar verən, bir növ yol xəritəsi təqdim edən və ardıcıl olaraq dərslərini qruplaşdıran bir müəllim qarşıma çıxdı. Və belə qənaətə gəldim ki, özü ilə müsahibə etmək, xarici dilin tədrisi sahəsində fikirlərini almaq oxucularımız üçün də maraqlı olar.

“Azərbaycan müəllimi” qəzetinin budəfəki müsahibi xarici dillərin tədrisi sahəsində tədqiqatlar aparan, hazırladığı tədris videoları ilə tanınan Bahrom Hudayardır. Türkmənistanda doğulub, milliyətcə özbəkdir. İbtidai, orta və lisey təhsilini özbək, rus, türkmən, ingilis və türk dillərində alıb. 2016-cı ildə Türkiyənin Kocaeli Universitetində “İngilis dili müəllimliyi” ixtisası üzrə məzun olub.

Əcnəbi müəllim:

“Düşünürəm ki, müəllimin şagirdə verə biləcəyi ən çətin dərs onları müstəqil şəkildə öyrənmək məsuliyyətinə sahib bir insana çevirməkdir”

- İlk növbədə, qədim dostluq, ortaq tarix və mədəniyyət telləri ilə bir-birimizə bağlı olduğumuz Azərbaycana ən səmimi salamlarımı çatdırmaq istərdim. “Azərbaycan müəllimi” kimi köklü və dəyərli bir qəzetdə yer almaq mənim üçün böyük bir şərəfdir. Bu incə dəvətləri və maraqlarına görə qəzetin bütün kollektivinə və Azərbaycandakı dəyərli müəllim həmkarlarımıza ürəkdən təşəkkür edirəm.

Uşaqlığımdan bəri dillərə böyük marağım var idi. Bu maraq universitet illərimdə də davam etdi: tələbə ikən fərdi dərslər verirdim, yarım ştat işləyirdim. Universiteti bitirdikdən sonra məktəbəqədər təhsildən tutmuş universitet səviyyəsinə qədər müxtəlif yaş qrupları ilə xarici dillərin tədrisi üzrə təcrübə qazandım. Nəhayət, öz “Bahrom Hudayar” “YouTube” kanalımı açaraq internet üzərindən xidmət göstərməyə başladım.

“Təəssüf ki, xarici dillərin tədrisində bu təbii prosesə kifayət qədər yer ayrılmır”

- *Xarici dil öyrənməyin ən yaxşı yolları hansılardır? Düzdür, vurğuladığınız kimi, bu, konkret məsələdir və adamdan adama dəyişir. Bəs bunu ümumiləşdirsək, hansı üsul daha təsirli olar?*

- Xarici dil öyrənməyin ən təsirli yolu mənalı və kifayət qədər təkrarlanan eşitmə məzmunlarına daimi məruz qalmaqdır. Dilin mənimsənilməsi sahəsində apardığı mühüm araşdırmaları ilə tanınan Prof. Dr. Stiven Kraşenin “Qəbul etmə-Öyrənmə hipotezi” (Acquisition-Learning Hypothesis) və “Anlaşılan giriş hipotezi” (Comprehensible Input Hypothesis) bizə bu mövzuda aydın bir istiqamət göstərir. Kraşenə görə, insanlar onlar üçün məna kəsb edən məzmunu başa düşdükcə dili qəbul edir öyrənirlər. Başqa sözlə desək, “biz mesajları başa düşəndə dili öldə edirik” (Krashen, 1985).

Ana dilimizi necə mənimsədiyimizi düşünəndə dilin qaydalarını öyrənmirik; ətrafdan gələn təbii səsləri təkrar-təkrar eşitmək və onlara məna verməklə onu öldə etdiyimizi görürük. Eyni prinsip xarici dillərə də aiddir. Təəssüf ki, bu gün xarici dillərin tədrisində bu təbii prosesə kifayət qədər yer ayrılmır, əyani və süni materiallara üstünlük verilir.

Tələbələrin maraq dairəsinə uyğun mənalı məzmunların (hekayələr, film və seriallar, tokşoular, “YouTube” videoları, sosial şəbəkə paylaşımları, şərhlər və s.) yazılı formada araşdırılması və sonra onların təkrar-təkrar dinlənilməsi, oxunulması və izlənilməsi zamanla şagirdlərdə qulaq alışqanlığı və dili dərk etməyi formalaşdıracaq. Bu proses təbii olaraq nitq bacarıqlarını artıracaq. Bununla belə, bir çox tələbə eşitmə bacarığı öldə etmədən danışmağa məcbur edildiyi üçün bu vəziyyət travmatik və səmərəsiz nəticələrə gətirib çıxarır.

Bu kontekstdə xarici dilin tədrisi öyrənənlər üçün mümkün qədər real, təbii və başa düşülən məzmunlara məruz qaldığı bir mühitə çevrilməlidir. Kraşenin təklif etdiyi kimi, mənalı məzmun vasitəsilə dilin öyrənilməsi mümkün və qalıcıdır; əsas səbirli olmaq və mütəmadi olaraq bu məzmunlara məruz qalmaqdır.

- *Bu gün dil öyrənənlərin, eləcə də dil öyrədənlərin ən çox yol verdiyi səhvlər hansılardır?*

- Fikrimcə, bu gün həm xarici dil müəllimləri, həm də öyrənənlər tez-tez aşağıdakı səhvlərə yol verirlər:

1. *“Dil haqqında çox bilsəm, danışa bilərəm”*

Bu gün dil müəllimləri dilin nəzəri tərəfinə həddən artıq diqqət yetirirlər. Tələbələrə dil haqqında daha çox məlumat verildikdə, onların bu dildə daha yaxşı danışacağı güman edilir. Lakin insan ingilis dilini nə qədər bilsə də, bu o demək deyil ki, o həmin dildə danışa bilər. Təəssüf ki, həm müəllimlər, həm də tələbələr bu faktı gözardı edirlər.

2. *“Əvvəlcə bütün qaydaları öyrənim, sonra danışaram” düşüncəsi*

Şagirdlər dil öyrənmə məsuliyyətinin böyük hissəsini müəllimin üzərinə qoyaraq, çox şeyi onların öyrənməli olduqlarını və bu prosesdə böyük xərclərə məruz qalmalarının normal olduğunu qəbul edirlər. Dillə bağlı strukturların mürəkkəbliyi qarşısında özlərini yetərsiz hiss edir və müəllimin verdiyi məlumatları yadda saxlamağa yönəlirlər. “Əvvəlcə qaydaları öyrənim, sonra danışaram” fikri çox yayılıb. Amma beyin istifadə olunmayan məlumatları tez silir. Bu mənada edilən sadəcə vaxt itkisidir.

3. *Görməyə daha çox üstünlük verilən tədris qulaqları deaktiv edir*

Ənənəvi dil dərsləri vizual materiallarla doludur; qulaqlara kifayət qədər müraciət edilmir. Bu sistemi əslində müəllimlər deyil, məktəbləri idarə edən kommersiya strukturu müəyyən edir. Məktəb sahibləri və onların gəlirə əsaslanan strukturu dili “satılabilən” etmək üçün bu cür dərsləri tətbiq edirlər. Müəllimlər sistemdən çıxanda işlərini itirmək riski ilə üzləşirlər. Dinləmə materiallarının olmaması bu kommersiya quruluşunun birbaşa nəticəsidir. Şagirdlər sanki tamaşaya baxırmış kimi dərsə baxır və sonra evə qayıdırlar.

4. *“Dil səviyyələrlə keçilən bir oyun deyil” həqiqəti*

Dil tədrisi çox vaxt səviyyələrə bölünmüş bir oyun kimi təqdim olunur. Tələbələr düşünürlər ki, səviyyələri keçməklə, sonda o dildə tam danışacaqlar. Lakin dilin quruluşu xaotikdir; biz bu xaosda öz nizamımızı qururuq. Sinifdə dil asandan çətinə sistemli şəkildə təqdim edildiyi üçün tələbələr real həyatdakı qarışıq və təbii dillə tanış olmadan məzun olurlar. Nəticədə xaricdə əsl dillə qarşılaşdıqda “şok” yaşayırlar.

5. *“Hazır olmadan danışa bilmərəm” dilemması*

Tələbələr çox vaxt özlərini ingilis dilində danışmağa hazır hiss etmirlər. Müəllimlər də şagirdin nə vaxt hazır olacağını təxmin edə bilməzlər. Beləliklə, tələbə özünü hazır hiss edənə qədər məlumat toplayır. Amma danışmağa hazır olmaq hissi illər keçsə də gəlmir. Bu zaman özümüzə bu sualı verməliyik: “Biz danışmadan hazır olmağa çalışırıq, yoxsa hazır olmadan danışmağa çalışdığımız üçün özümüzü hazır hiss etmirik?” Cavab da problemi həll etməyə kömək edəcək.

6. *“Bilik var, amma cəsarət yoxdur” sindromu*

Xarici dil tədrisi zamanı müəllim aktiv, şagird isə passivdir. Lakin danışmaq cəsarət, özünə inam və enerji tələb edir. Daim oturub qeydlər aparan tələbə zamanla fiziki və əqli cəhətdən passivləşəcək. Nəticədə dili bilən, lakin danışmağa cəsarəti olmayan fərdlər yetişəcək. Motivasiyaları aşağıdır və danışmaqdan qorxurlar. Bu da onların dili həqiqi mənada istifadə etməsinə mane olur.

7. *“Dil öyrənmək restorandan sifariş vermək deyil”*

Tələbələr restoranda sifariş etdikləri yeməyi 10 dəqiqəyə almaq istədikləri kimi qısa müddətdə dil öyrənməyi gözləyirlər. Bu da “2 ayda ingilis dili” kimi reklamlara gətirib çıxarır. Dil sürətləndirilsə belə, nitq bacarıqları zamanla inkişaf edir. Odur ki, dil təhsili bizim qaydalara görə deyil, dilin əsl mahiyyətinə uyğun olaraq planlaşdırılmalıdır.

Nəticə: Dilin təbiətinə uyğun olan təhsil sistemi lazımdır.

Real nəticələr əldə etmək üçün müəllimlər və tələbələr daha realist olmalıdırlar. Öz anlayışımıza görə deyil, dilin təbiətinə uyğun dərslər təşkil olunmalıdır. Əks halda, biliklə dolu, lakin danışa bilməyən şəxslər yetişdirməyə davam edəcəyik.

“Xarici dil öyrənməkdə uğurumuzun 70%-ni psixologiyamız müəyyənləşdirir”

- *Qısa müddətdə öyrənmək üçün yanlış üsullardan istifadə edirik, yoxsa düzgün formulunu bilmirik?*

- Əslində, biz əsas məsələyə nəzər saldıqda xarici dili tez öyrənməyin əsas amillərini qiymətləndirərkən çox vaxt həllini xarici faktorlarda axtarırıq. Beləliklə, düzgün metodu və düzgün materialı tapdığımız zaman işin tamamlanacağına inanırıq. Bu, perspektiv həllin özümüzdə deyil, kənarda bir yerdə olduğunu söyləyən vərdişlərimizin bir əksidir.

Lakin xarici dil öyrənməkdə uğurumuzun 70%-ni psixologiyamız müəyyənləşdirir. Psixoloji vəziyyətiniz bu prosesi nə qədər tez və effektiv keçəcəyinizi böyük ölçüdə müəyyən edir. Tələbə özünü inamsız hiss edirsə, motivasiyası aşağıdırsa və ya qorxu və narahatlıq səviyyəsi yüksəkdirsə, dil öyrənmək demək olar ki, qeyri-mümkün olur. Bu zaman ən dəqiq materialı, ən yaxşı müəllimi və ya ən təsirli metodu gətirsək belə nəticə dəyişməz.

Əksinə, özünə inamlı, yüksək motivasiyalı və neytral səviyyədə qorxu və narahatlığa malik olan tələbə çox vaxt hətta çox adi resursla - məsələn, sadə 30 səhifəlik hekayə kitabı ilə də dil öyrənmə prosesini uğurla başa çatdıra bilər.

Düzgün düstur əslində əlimizin altındadır. Artıq hamımız bir dil öyrənmişik: Ana dilimiz. Əslində ana dilimizi öz gücümüzlə, müəllim və ya məktəbin köməyi olmadan öyrənməyimiz bizi dil öyrənmək sahəsində “təcrübəli” fərdlər edir. Dəqiq və effektiv nəticələr əldə etmək üçün ana dilimizdə olduğu kimi, xarici dildə də oxşar düstura əməl etməliyik.

Danışıq dilini başa düşdükdən sonra, oradakı kəlmələri özümüzü ifadə etmək - eynilə uşaqlıqda ana dilimizdə danışmağa başladığımızda olduğu kimi - təbii bir formada gerçəkləşir. Əvvəlcə tək-tək sözlərlə başlayırıq, sonra iki-üç sözdən ibarət cümlələr qururuq və zaman keçdikcə daha uzun ifadələr yaratmağa başlayırıq.

Xarici dildə danışmaq bir prosesdir. Bu prosesdə çoxlu səhvlər edərək nitq bacarıqları inkişaf edir. Səhv etmək bu işə xasdır, çünki öyrənməyin təməl daşıdır.

Düzgün düstur bu üç maddə ilə ümumiləşdirilə bilər:

- Çoxlu cəlbedici məzmun istehlak et;
- Mənalı mesajları yadda saxlamağa deyil, anlamağa diqqət yetir;
- Səhv etməkdən qorxma, bu, inkişafın özüdür.

“Xarici bir dili effektiv öyrənmək üçün ana dilini yaxşı bilməlisən”

- *Əksər ölkələrin məktəblərində bir sıra xarici dillər tədris olunur. Lakin 11 illik təhsil müddətinin sonunda nəticə elə də yüksək olmur. Problem tədris vəsaitlərində, tədris üsullarında, yoxsa müəllimlərin bilik və bacarıqlarının kifayət qədər olmamasındadır?*

- Öncəliklə, illər əvvəl eşitdiyim və hələ də qüvvədə olan bir fikirlə başlamaq istərdim: “Xarici bir dili effektiv öyrənmək üçün, ilk növbədə, ana dilini yaxşı bilməlisən”. Mən bu fikirlə razıyam, amma burada “ana dilini yaxşı bilmək” deyəndə demək istədiyim qrammatik qaydaları əzbərləmək deyil; dildən aktiv şəkildə istifadə edə bilmək, fikir meydana gətirməkdə təsirli olmaq, sözlərlə mükəmməl əlaqə qura bilməkdir.

Bununla belə, tələbələr öz ana dilində nə qədər yaxşı olsalar da, məncə, bütün dünyada xarici dil tədrisində sistemli bir problem var. Çünki bu təlim əvvəldən məcburidir. Yəni tələbə istəməsə belə bu dili öyrənməyə məcbur edilir. Lakin sinif mühitləri real həyatdan çox uzaq olduğu üçün əksər tələbələr xarici dili niyə öyrənməli olduqlarını tam başa düşə bilmirlər. Və çox təəssüf ki, bu icbari təhsil prosesinin sonunda əksər tələbələr üçün xarici dilin əsas məqsədi yüksək qiymət almaq, dərs keçmək, ailəni sevindirmək və ya müəllim tərəfindən danlanmamaq olur. Onlar bu dərsdən, belə demək mümkünsə, tez bir zamanda qurtulmağa çalışırlar.

Amma fərd istər məktəb sistemi daxilində, istərsə də ondan kənarda dili nə üçün öyrənməli olduğunu bilmirsə, yəni daxildən gələn tutarlı və güclü səbəb yoxdursa, ağıl bu prosesi ciddi qəbul etmir. Bu səbəbdən tələbələr 11 il ərzində dillə bağlı bəzi məlumatları əzbərləyir və yalnız imtahanlardan keçməyə çalışırlar. Lakin bu prosesdə dildən istifadə, yəni danışmaq heç vaxt real olaraq ön plana çıxmır.

Əslində məktəblərdə biz şagirdlərə ingilis dili haqqında məlumat veririk, ingilis dilini necə danışmağı öyrətmirik. Bu məqamda nə şagirdləri, nə də müəllimləri günahlandırıram. Çünki bu vəziyyətin əsas səbəbi başdan-aşağı təhsil sisteminin özüdür. Həm müəllimlər, həm də şagirdlər onlara təqdim olunan kurikuluma əməl etmək məcburiyyətindədirlər. Lakin məncə, bu kurikulumlar xarici dil təhsilində funksionallıqdan uzaqdır.

İstənilən kurikulumu açıb araşdırdığınız zaman görəcəyiniz şey budur: Mövzular məlumatın ötürülməsinə yönəlib. “Past Simple Tense” öyrədilir, sonra kurikulumda deyilir: “Şagird keçmişdən bəhs edə bilər, hekayələr danışa və keçmiş hadisələri dilə gətirə bilər”. Bu ifadələr sanki bir mövzunun izah edilməsi ilə bu bacarıqların avtomatik olaraq inkişaf edəcəyi fərziyyəsinə söykənir.

Düzgün yönləndirmə, güclü səbəb, psixoloji dəstək və güvən mühiti təmin edildikdə, adi materialla belə yüksək uğur əldə etmək olar. Nəticədə yenə eyni nöqtəyə qayıdırıq: Uğurun 70%-i psixoloji amillərdən asılıdır. Özünə inamı yüksək, motivasiyası yaxşı, qorxu və narahatlıq səviyyəsi aşağı olan tələbə xarici dili adi bir hekayə kitabı ilə belə öyrənə bilsə də, psixoloji təzyiq altında olan tələbəyə ən yaxşı materialları təqdim etsək belə, real öyrənmə baş verməyəcək.

Bu məqamda dil öyrənilməsi mövzusunda mühüm araşdırmalar aparmış professor Stiven Kraşenin aşağıdakı müşahidəsi olduqca məqsədəuyğundur:

“Sadəcə şagirdin motivasiyası varsa, özünəinamı yüksəkdirsə və narahatlıq səviyyəsi aşağıdırsa, dili öyrənməsi mümkün olur”.

Təhsil sistemi nə qədər “şagird mərkəzli” görünməyə çalışsa da, mahiyyətcə müəllim mərkəzli strukturunu davam etdirir. Şagirdlərdən gözlənilən şey yaradıcı fikirlər yaratmaq deyil, düzgün cavabları əzbərləyib testdə düzgün cavabı işarələmələridir. Bu yanaşma onları aktiv öyrənənlərə deyil, passiv məlumat alıcısına çevirir.

Bəs həll yolu nədir? Təbii ki, ideal sistemin meydana gəlməsini gözləmək üçün vaxt itirmək olmaz. Ona görə də hesab edirəm ki, burada müəllim amili çox önəmlidir. Müəllim dedikdə biliyi ötürən mövqedəki peşədən bəhs etmirəm. Məşqçi mövqeyindəki müəllimlik peşəsindən danışıram. Sistem nə qədər əyri olsa da, tələbə-şagird, tələbə-müəllim əməkdaşlığı ideal səviyyədə olduğu müddətcə həlli mümkün olmayan problem yoxdur. Tələbəsinə bələdçilik edən, istiqamətləndirən, ona hədəf göstərən, məsuliyyət yükləyən, səhv etməsinə icazə verən, dili yaşanabilən edən bir müəllim profilinə ehtiyac var. Çünki şagirdlər özləri məsuliyyətli fərdlər olmaq istəməsələr, müəllimlər təkbaşına heç nə edə bilməzlər. Yalnız bu yolla öyrənməyi kənardan gözləyən deyil, öz öyrənmə prosesinə sahib çıxan fərdlər yetişdirə bilərik.

“Dərslərimizi bu dünyaya uyğun formalaşdırmalıyıq”

- *Uzun illər məktəblərimizdə xarici dilin tədrisi sadəcə yazılı metodika üzərindən olub, dinləmə materialları son bir neçə ildir ki, kurikuluma salınıb. Bir dilin mənimsənilməsində dinləmələrin önəmini siz necə ifadə edərdiniz?*

- Bəli, təəssüf ki, bu günə qədər məktəblərdə və dil kurslarında dinləmə bacarıqlarına lazımi əhəmiyyət verilməyib. Çünki biz hələ də böyük ölçüdə GTM adlandırdığımız qrammatika və tərcüməyə əsaslanan qrammatik tərcümə metodundan istifadə edirik. Bu metod diqqəti oxuma və yazma bacarığının üzərinə toplayır, yalnız oxumağı və yazmağı öyrənməyi asanlaşdıran texnikaları inkişaf etdirir. Nəticədə, danışma və dinləmə diqqətdən kənarda qalır. Bu gün mövcud dərsliklərin 90%-dən çoxu ya birbaşa bu metodun təsiri altındadır, ya da fərqində olmadan bu metodun izi ilə gedir. Nəticə isə metodun vəd etdiyi kimi olur: şagirdlər “oxuduqlarını başa düşürlər”, lakin “danışa bilmirlər”. Bu məşhur cümləni hamı bilir: “İngilis dilini başa düşürəm, amma danışa bilmirəm”. Bu, sistemin ən aydın təzahürüdür.

Əsas problem budur ki, dil kursları və məktəblər bu üsula əsaslanan materiallarla işləyir, lakin şagirdlərə “danışmağı” vəd verir. Ancaq bu metodun heç vaxt belə bir vədi olmayıb. Yəni kökündə nitq olmayan sistemdən nitq nəticəsi gözlənilir. Ziddiyyət də buradan başlayır. Son illərdə bu ziddiyyət get-gedə nəzərə çarpdığı üçün “dinləmə” bacarığına daha çox önəm verilməyə başlandı. Ancaq bu dəfə də qarşımıza süni dinləmə materialları çıxdı. Keçmişdə istifadə edilən mp3 faylları bir müddət işə yarasa da, artıq smartfonlardan daha cəlbedici deyil. Belə olan halda bu materiallar nə qədər yaxşı tərtib olunsa da, tələbənin diqqətini cəlb etmədikcə effektiv olacağını gözləmək olmaz. İnanıram ki, şagirdləri seçdiyimiz məzmunu dinləməyə məcbur etmək əvəzinə, onlara bəyəndikləri məzmunu seçməyə icazə verilməlidir. Onlar hətta bu məzmunu təqdimata çevirə və televiziya aparıcısı kimi videolar çəkə bilərlər.

Bir sözlə, hamıya eyni tapşırığı verməkdənsə, hər şagirdə özünə uyğun tapşırıq verilməlidir. Buna görə də layihə əsaslı fərdi dinləmə tapşırıqları daha funksionaldır. Çünki bugünkü şagirdlərdən, həqiqətən, nəticə əldə etmək istəyiriksə, öz maraqlarımıza deyil, onların maraqlarına uyğun qurulmuş dərsləri tərtib etməliyik. Onda həm müəllim, həm də şagird məmnun qalacaq.

“Topdansatış yanaşması yeni nəslin təlim-tərbiyəsində çox da işə yaramır”

- *Bu gün internet üzərindən kifayət qədər dil öyrənimi üçün materiallar əldə etmək olar. Müəllimlər bunu özləri üçün fərdiləşdirsələr yaxşı olar, yoxsa dil tədrisi ümumi kurikulum üzərindən aparılsa daha effektiv nəticə verər? Bu mənada xarici dillərin dərsi üçün kurikulumlarda nələrin olmasını labüd hesab edirsiniz?*

- Bəli, bu gün xüsusilə “Youtube” kimi platformalarda istədiyimiz xarici dil haqqında kifayət qədər məzmun var. O qədər ki, bu məzmun dənizində nəyə baxacağımız və nəyi izləyəcəyimiz barədə çaşqınlıq yaşayırıq. Bu bolluq ilk baxışda üstünlük kimi görünsə də, tələbələr arasında şəxsiyyət və öyrənmə fərqləri bu neməti kabusa çevirə bilər. Çünki buradakı əsas məsələ bütün tələbələr üçün “hansı material daha effektivdir?” və ya “hansı material ilə daha sürətli irəliləyə bilərik?” suallarına aydın cavab tapa bilməməkdir.

Sanki bu məqamda müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Əgər müəllimlərimiz sadəcə kurikuluma bağlı olmayıb, internetdən (özlərinin və ya tələbələrinin) tapdıqları materialları tələbələrin maraqlarına, hazırlığına və öyrənmə üslublarına uyğun olaraq fərdiləşdirə bilsələr, bu materiallar yenidən strukturlaşdırılaraq daha təsirli ola bilər. Ancaq burada dürüst olsaq, bir materialın hər kəs üçün effektiv olacağını düşünmək, demək olar ki, mümkün deyil. Çünki sinif daxilində fərdi fərqlər o qədər açıqdır ki, müəllim onları görməzdən gələ bilməz. Şagirdlər üçün fərdi materiallar və tapşırıqların verilməsi daha real nəticələr əldə etməyə kömək edəcəkdir.

Düşünürəm ki, müəllimin şagirdə verə biləcəyi ən çətin dərs onları müstəqil şəkildə öyrənmək məsuliyyətinə sahib bir insana çevirməkdir.

- *Bəzən çoxlu söz öyrənmək də danışmaq üçün kifayət etmir. Şagirdlərdə xarici dildə nitqin inkişafı üçün nələri tövsiyə edərdiniz?*

- Xarici dil öyrənərkən zəngin söz ehtiyatına malik olmaq vacib şərtdir. Ancaq bəzən elə vəziyyət yaranır ki, tələbələrin kifayət qədər söz bilməsinə baxmayaraq onlardan istifadə edərək fikirlərini ifadə edə bilmədiklərinə şahidi oluruq. Bu, onları çox narahat edir.

Sözləri və onların mənalarını bilmək işin yalnız bir hissəsidir. Çünki bir sözü bilmək o demək deyil ki, biz danışarkən ondan avtomatik istifadə edə bilərik.

Dilin əsl sahiblərinin hansı situasiyalarda cümlələri necə qurması ilə bağlı müəyyən təcrübəyə ehtiyacımız var. Necə ki, ana dilimizi öyrənirik... Doğulduğumuz gündən etibarən bir ildən çox sadəcə qulaq asır, müşahidə edirdik. Eyni proses ingilis dili üçün də keçərlidir. Məhz buna “passiv dinləmə” deyirik. Yəni izlədiyimiz səhnələri əzbərləməyə çalışmadan, təhlil etmədən, sadəcə anlamağa çalışmaq... Və bunu təkrar-təkrar etmək. Bu, nitq bacarıqlarının əsasını təşkil edir.

Tələbələr adətən “mən hazıram” dediyi anı hiss edə bilmir və belə bir məqam da gəlmir. Buna görə də, danışmağa başlamazdan əvvəl hazır olmağı gözləməkdənsə, danışmaq üçün səy göstərərək hazırlıq prosesinə başlamaq daha yaxşıdır.

Bunun üçün maraqlı məzmun tapmağınız vacibdir. Öz unikal metodunuzu inkişaf etdirməyiniz də mümkündür. Məsələn, bir “YouTube” videosunu tapın. Altyazısını çap edin və bu sənədi öyrənin. İngiliscə altyazı ilə videoya baxmağa başlayın. Nəyisə başa düşmədiyiniz zaman fasilə verin və kağıza müraciət edin. Lazım gələrsə eyni videoya 3-5 dəfə təkrar baxın. Daha sonra kağızı kənara qoyun və videoya altyazısız/sürətləndirici ilə baxmağa çalışın. Başlanğıcda sizə çox sürətli görünən nitq indi daha yavaş və daha başa düşülən səslənəcək. Çünki əslində dil sürətli deyil. Biz onları anlamaqda gecikdiyimiz üçün belə görünür.

Bu bir neçə günlük intensiv təkrarlama və dinləmədən sonra sizə lazım olan şey həmin videonu danışma təcrübəsi ilə taclandırmaq olacaq. Video və ya videodakı hər hansı hadisə ilə bağlı fikirlərinizi kağıza öz sözlərinizlə yazmaqla izah etməyə çalışın. Yazılı işinizdən sonra kağız üzərində yazdıqlarınızı yaxınlarınıza şifahi şəkildə izah edin. Həmin adamın ingilis dilini bilməsi lazım deyil, sadəcə gülmədən, tənqid etmədən sizi dinləsin. Danışmaqdan çəkinirsinizsə, otağınıza gedin və kamera ilə danışın. Ancaq bunu edərkən diqqətli olmağınız lazım olan şey öz ana dilinizdə düşüncələrinizi sadələşdirməkdir. Daxili səsinizi sadələşdirin. Mürəkkəb cümlələrlə mübarizə aparmaq məcburiyyətində deyilsiniz. Ana dilinizdə düşündüyünüz cümlələri ibtidai məktəb səviyyəsinə endirsəniz, onların ingiliscəsini yaratmaq çox asan olar.

Nəticədə, bu məzmunlara təkrar-təkrar məruz qaldığınız zaman, bu sözlər yavaş-yavaş şüuraltınıza yerləşməyə başlayır. Və bir gün sən danışarkən, özünü ifadə edərkən fərqinə varmadan bu sözlər tökülməyə başlayır. Həqiqətən danışmağa başlamağın yolu budur.

Çingiz SƏFƏRLİ